# Ədalət təmin olundu

## İrandakı səfirliyimizə hücum edən terrorçu layiqli cəzasını aldı

**2023-cü il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə edilən terror hücumu iki dövlət arasındakı münasibətləri daha da kəçkinləşdirmişdi. Həmin hadisə zamanı səfirliyimizin mühafizə xidmətinin rəisi Orxan Əsgərov şəhid olmuş, iki nəfər ağır yaralanmışdı. Onlardan biri - mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev öz qorxmazlığı və fədakarlığı ilə terrorçunu tərksilah etmişdi.**



### Qətiyyətli və prinsipial mövqe

Terror hadisəsi baş verəndən dərhal sonra Prezident İlham Əliyev səfirliyin fəaliyyətinin dayandırılması və diplomatlarımızın geri çağırılması ilə bağlı tapşırıq verdi. Səfirliyimizin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri qısa müddətdə Bakıya gətirildilər. Şəhid Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edildi. Prezident İlham Əliyevin sərəncamı ilə terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə Vasif Tağıyev 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Orxan Əsgərov (ölümündən sonra) və Mahir İmanov isə "Vətən uğrunda" medalına layiq görüldülər.

Qeyd edək ki, səfirliyimizə qarşı xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənmiş və qəbuledilməz hesab olunmuşdu. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilmişdi. Əlbəttə ki, Azərbaycan dövlətinin tələbi terror hadisəsinin obyektiv şəkildə araşdırılması, terrorçunun və təşkilatçıların layiqli cəza alması idi.

Aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev bu hadisə ilə bağlı fikirlərini bildirərək qeyd etmişdi ki, iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən və arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır: "Təkcə bu terror hadisəsini törədən şəxs deyil, onun arxasında dayananlar, onu Azərbaycan səfirliyinə göndərənlər də məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, yeni administrasiya ilə bizim işgüzar əlaqələrimiz var, onlardan gözləntimiz bu məsələni həll etməkdir. Biz orada siyasi sistemin mürəkkəbliyini, icra hakimiyyətinin məhdud imkanlarını anlayırıq. Biz bunları bilirik, ancaq iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən, onu təşkil edən və bu hadisənin arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır".



### Şəhidimizin qanı yerdə qalmadı

Ümumiyyətlə, bu məsələ ilə əlaqədar Azərbaycan Prezidenti ilk gündən prinsipial mövqe ortaya qoydu, hadisənin obyektiv şəkildə araşdırılmasını və hüquqi qiymətləndirilməsini tələb etdi. Sonda dövlətimiz öz haqlı istəyinə çatdı. İran KİV-nin yaydığı məlumata əsasən, dünən səhər saatlarında respublikamızın Tehrandakı səfirliyinə hücum edən şəxs İran qanunlarına əsasən edam edilib.

İranda Azərbaycan səfirliyinə qarşı terror törətmiş cinayətkarla bağlı məhkəmə qərarının icra edilməsi Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin ədalətin bərpa olunması üçün nümayiş etdirdiyi qəti və prnsipial mövqeyin nəticəsidir. Bütün bunların fonunda öz təsdiqini tapan başqa bir həqiqət isə ondan ibarətdir ki, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır. Harada olmasından və yaşamasından asılı olmayaraq, dövlətimiz hər zaman vətəndaşlarının arxasındadır.

Bu terror hadisəsinin hüquqi müstəvidə öz qiymətini alması Azərbaycan-İran münasibətləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfərindən sonra Bakı ilə Tehran arasında münasibətlərdə pozitiv dinamika müşahidə olunur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində İrandan cəlb olunan heyətin iştirakı ilə keçirilən "Araz-2025" birgə təlimi də bu dinamikanın göstəricisidir. Əlbəttə, bu dinamikanın qorunub saxlanılması iki dövlət arasındakı münasibətlərin daha da inkişafı baxımından olduqca vacibdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 22 may (№105).- S.8.